# Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 6 fevral 2016-cı il tarixli 38 nömrəli qərarının icra olunması haqqında

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası"nın təsdiq edilməsi barədə 6 fevral 2016-cı il tarixli 38 nömrəli qərarının icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci maddəsini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 6 fevral 2016-cı il tarixli 38 nömrəli qərarı rəhbərlik və icra üçün qəbul edilsin.

**2.** Ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin rəhbərlərinə tapşırılsın:

- Cari semestrdən başlayaraq təhsilalanların təqaüdlərinin "Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası"na uyğun təyin olunmasını və ödənilməsini təmin etsinlər;
- Təqaüd komissiyasının formalaşdırılmasını, tələbələrin ixtisaslar üzrə ÜOMG-nin hesablanması, sıralama siyahılarını və buna əsasən təqaüd siyahısını, fənlər üzrə akademik nailiyyətlərə görə təqaüd növlərinin müəyyənləşdirilməsini və digər təşkilati məsələlərin həllini təmin etsinlər.

**3.** Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsi (Y.Piriyev) və Maliyyə şöbəsi (R.Orucov) Qaydadan irəli gələn məsələləri həll etsinlər və digər zəruri tədbirləri həyata keçirsinlər.

**4.** İnformasiya şöbəsi (E.Əliyev) əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını, əlavələrlə birlikdə Nazirliyin internet səhifəsində yerləşdirilməsini və çoxaldılıb yerlərə göndərilməsini təmin etsin.

**5.** Əmrin icrasına nəzarət Aparatın rəhbərinə (M.Eynullayev) tapşırılsın.

**Mikayıl CABBAROV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*9 fevral 2016-cı il*